# Ağdamın "Nənə qızlar"ı yenidən səhnədədir



**Birqərinəlik vətən həsrətinin, nisgilinin ardından Ağdamın Abdal-Gülablı kəndinin şan-şöhrətli "Nənə qızlar" folklor ansamblı yenidən səhnəyə qayıdıb.**

32 illik fasilədən sonra ilk dəfə 2023-cü il noyabrın 8-də - Zəfər Günündə sevənlərinin görüşünə gələn "Nənə qızlar" bu il Ağsuda keçirilən beynəlxalq folklor festivalındakı möhtəşəm çıxışı ilə ansambla yenidən böyük diqqət və maraq cəlb edib.

"Tərəkəmə Çərşənbəsi - V Beynəlxalq folklor festivalının keçirilməsi" layihəsi çərçivəsində Ağsu rayonunun Gəgəli kəndində keçirilən ikigünlük beynəlxalq folklor festivalında "Nənə qızlar" ansamblındakı qızların çıxışı, qoca nənənin ifa etdiyi "Qarabağ şikəstəsi", maraqlı rəqs hamının, xüsusilə də xarici festival iştirakçılarının böyük marağına və rəğbətinə səbəb olub. Bütün iştirakçılar rəqsə qoşulublar və festivalda xüsusi şənlik ab-havası yaranıb.

Beynəlxalq festival Mədəniyyət Nazirliyinin dəstəyi, "Miras" Mədəni İrsin Öyrənilməsinə Kömək İctimai Birliyinin təşkilatçılığı ilə ənənəvi olaraq Gəgəli kəndində - Tərəkəmə yurdunda keçirilib. Bu festivalda respublikamızın müxtəlif bölgələrindən folklor qrupları iştirak ediblər.

Məlumat verək ki, "Nənə qızlar" folklor ansamblı 1982-ci ildə Ağdamda yaradılıb və böyük səhnələrdə çıxış edərək uğurlar qazanıb.

1993-cü ildə Ermənistan tərəfindən Ağdam rayonunun işğal olunması nəticəsində bu ansambl da öz fəaliyyətini dayandırıb. Bir də 2023-cü il noyabrın 8-də Ağdamın Quzanlı qəsəbəsində keçirilən Zəfər bayramında ansambl yenidən fəaliyyətini bərpa edib. BDU-nun "Dədə Qorqud" elmi tədqiqat laboratoriyasının müdiri, folklorşünas Almara Nəbiyeva qrupun əvvəlki üzvlərini və yeni istedadlı qızları ansambla dəvət edərək səhnəyə yenidən qaytarıb.

A.Nəbiyeva bildirir ki, "Nənə qızlar" folklor ansamblının fəaliyyətini daha da genişləndirmək məqsədi ilə mötəbər və ziyalı insanlar ansamblın fəaliyyətinə yaxından dəstək olurlar. Folklorşünas alim milli adət-ənənələrimizi yaşadan "Nənə qızlar" folklor ansamblının bundan sonra da yeni-yeni uğurlara imza atacağına əmin olduğunu söyləyib.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

Azərbaycan.- 2024.- 5 iyun (№117).- S.16.